# Xalqımıza Qalibiyyət yaşadan qətiyyətli Lider



**Dövlət başçısının hərbi-siyasi, diplomatik məharəti və prinsipiallığı sayəsində bu gün qüdrətli ölkənin məğrur vətəndaşlarıyıq**

**Hər bir dövlətin özünütəsdiqində, beynəlxalq siyasətinin formalaşmasında onun lideri mühüm rol oynayır. Prezident İlham Əliyevin hərbi-siyasi, diplomatik məharəti və prinsipiallığı sayəsində bu gün xalqımız qürurlu günlər yaşayır. Qloballaşma və inteqrasiya proseslərində, beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edən ölkə başçımız öz əməli işi ilə Azərbaycan xalqının mətin iradəyə, sarsılmaz ruha, intellektual potensiala malik bir xalq olduğunu sübut etdi.**

İlham Əliyevin uzaqgörən siyasətinin mühüm tərkib hissəsi Azərbaycanı təkcə neft ölkəsi kimi deyil, dünyada qədim tarixə, yüksək mədəniyyətə malik olan bir ölkə olaraq tanıtmasıdır. Bu istiqamətdə böyük səylər göstərən dövlət başçısı Azərbaycanın elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə, dünya ölkələri ilə əməkdaşlığının möhkəmləndirilməsinə nail olmuşdur. Ölkəmiz dünyanın nüfuzlu elm və mədəniyyət mərkəzinə çevrilmiş, xalqımız qədim tarixə, özünəməxsus mədəniyyətə, adət və ənənələrə malik xalq kimi tanınmış, Cənubi Qafqazda mühüm mövqeyə sahib olmuşdur.

Bu gün Azərbaycanın bütün bölgələri dirçəlir, yenidənqurma və bərpa-quruculuq işləri aparılır. Respublikada elm və kadr potensialı gücləndirilir, milli mədəniyyətin, mənəvi dəyərlərin təbliği, dünyada layiqli imicinin formalaşdırılması kimi mühüm məsələlərin həllinə nail olunur.

Prezident İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addımı Azərbaycan dövlətinin dayaqlarının möhkəmlənməsinə, müstəqilliyimizin inkişafına və dövlətçilik tariximizin qorunub saxlanmasına xidmət edir. Azərbaycanın milli maraqlarının həyata keçirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılması, güclü dövlət və müasir cəmiyyətin formalaşdırılması ölkə başçısının məqsədyönlü siyasətinin mühüm istiqamətidir. Belə ki, ölkə başçısı siyasətində xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında birləşdirən azərbaycançılıq ideologiyasına əsas yer ayırır.

Bu gün Azərbaycan milliliklə dövlətçiliyin bir-birinə qovuşduğu, xalqla dövlət arasında sarsılmaz birlik olan ideal ölkədir. Milli dəyərlərin dirçəldilməsi, əhalinin rifah halının gündən-günə yüksəldilməsi, milli maraqların reallaşdırılması müasir Azərbaycanı dünyəvi, beynəlxalq birliyə inteqrasiya edən, demokratik əsaslara sadiq olan ölkə kimi inkişaf etdirir.

**(davamı 3-cü səhifədə)**

# Xalqımıza Qalibiyyət yaşadan qətiyyətli Lider

(əvvəli 1-ci səhifədə)

## Dövlət başçısının hərbi-siyasi, diplomatik məharəti və prinsipiallığı sayəsində bu gün qüdrətli ölkənin məğrur vətəndaşlarıyıq

Hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişaf dövlət siyasətinin prioritet istiqamətidir. Azərbaycanın inkişafına və modernləşdirilməsinə hədəflənmiş dövlətçilik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir, ümummilli lider Heydər Əliyevin düşünülmüş daxili və xarici siyasət kursu bütün istiqamətlərdə uğurla davam etdirilir. Ölkə başçısının daxili və xarici siyasəti nəticəsində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda ciddi yeniliklər və uğurlar qazanılmışdır.

Əsl rəhbər kimi İlham Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıtdı, öz zəkası ilə qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, Azərbaycana həm bölgədə, həm də dünyada layiqli yer qazandırdı.

Dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşə malik olan Prezident əməli fəaliyyəti ilə müasir Azərbaycanın bugünkü reallıqlarını yaratmış, gələcəyə aparan yolları müəyyən etmiş, müstəqil Azərbaycanın tərəqqisini təmin etmişdir.

İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və siyasi perspektivlərə əsaslanan xətlə inkişaf edir. Ölkə başçısının beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunallardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bugünü və gələcəyi baxımından çox böyük əhəmiyyət kəsb edir. İlham Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına sadiqlik, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri təşkil edir.

Müasir, dünyəvi dövlət olan Azərbaycanın bölgədəki mövqelərinin möhkəmlənməsi onu irəliyə, hərtərəfli inkişafa doğru aparır. Bu gün ölkədə gedən proseslər, bölgədəki mövqelərimiz, dünyada baş verənlərə təsir imkanlarımızın genişlənməsi ölkə başçısı İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsidir. Xalq-iqtidar birliyi, dövlətin apardığı siyasətə xalq tərəfindən olan dəstək, bütün cəmiyyətin ümumi bir ideya - milli ideya ətrafında birləşməsi, vətəndaş həmrəyliyi yalnız və yalnız uzaqgörən, praqmatik dövlət başçısının sayəsində mümkündür.

Milli maraqların qorunması, milli qürur, milli və dini tolerantlıq kimi təməl prinsipləri əsasında müstəqil siyasət yürüdən ölkəmiz bu gün dünya ölkələri ilə əməkdaşlığı gündən-günə genişləndirir, üzv olduğu beynəlxalq təşkilatlarda fəal iştirak edərək beynəlxalq mövqelərini get-gedə daha da dərinləşdirir. Ümummilli lider Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirən dövlət başçısının məqsədyönlü daxili və xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu getdikcə artır. Artıq Azərbaycan bölgədə öz mövqelərini daha da möhkəmləndirmiş, beynəlxalq müstəvidə layiqli yerini tutmuş, Prezident İlham Əliyevin ardıcıl, çoxillik və ən başlıcası isə hərtərəfli, düşünülmüş, ölçülüb-biçilmiş dövlət siyasəti sayəsində bölgədə və dünyada regional liderliyini təmin etmişdir.

Demokratik cəmiyyət, hüquqi dövlət, insan haqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə ayaqlaşan ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutmaqla bərabər, indi dünyanın, regionun əsas strateji və qlobal problemlərin həllində Azərbaycanın mövqeyi nəzərə alınır, regionda beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarına uyğun olaraq həyata keçirilir.

Prezident İlham Əliyev güclü, öz xalqını dərindən sevən, bütün gücünü Azərbaycanın qüdrətlənməsinə və xalqın ən böyük arzularının gerçəkləşdirilməsinə sərf edən, xalqının sevgisini, dəstəyini qazanmış Liderdir. O, 30 il beynəlxalq birliyin Azərbaycanın 20 faiz ərazisinin işğalı ilə bağlı heç bir addım atmaması, ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyəti ilə barışmayaraq Azərbaycanın qurtuluş savaşına başladı və tarixi torpaqlarımızı azad etdi. Bununla da Azərbaycan xalqı üçün ən mühüm əhəmiyyət kəsb edən, taleyüklü problemin həlli Prezident İlham Əliyevin qətiyyəti, prinsipiallığı, uzaqgörənliyi, məqsədyönlü və düşünülmüş siyasəti sayəsində həll olundu.

Milli birliyə, ictimai sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil Azərbaycan bu gün ərazi bütövlüyünü təmin edərək xalqımız və dövlətimiz üçün ən ağır problem olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini Zəfərlə bitirdi. Bütün bunlar isə Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət edən ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir.

Dəfələrlə mötəbər kürsülərdən heç vaxt torpaqlarımızın işğal altında qalması ilə barışmayacağımızı, münaqişənin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, öz doğma torpaqlarımızı nəyin bahasına olur-olsun azad edəcəyimizi bəyan edən İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi gündən bu amal uğrunda mübarizə apardı. Bu mübarizə onun daxili və xarici siyasətinin əsas qayəsinə çevrildi. İlham Əliyev təkcə Müzəffər Ali Baş Komandan kimi deyil, həm də güclü, iradəli, uzqagörən, yüksək idarəetmə məharəti kimi keyfiyyətlərə malik siyasətçi, yenilməz dövlət başçısı kimi bu Qalibiyyətə imza atdı.

Azərbaycan həm döyüş meydanında, həm də informasiya məkanında məkrli düşmənlə üz-üzə dayanaraq dövlətinin güclü və müstəqil siyasət aparan bir dövlət olduğunu bütün dünyaya bəyan etdi.

İnformasiya mübarizəsində üstünlüyümüzün ən önəmli epizodlarından biri 15 fevral 2020-ci ildə Münhen Təhlükəsizlik Konfransında olmuşdur. Təcavüzkar ölkənin hökumət başçısı tarixi həqiqətləri təhrif etməklə əsl mahiyyətdən yayınmağa çalışsa da, Azərbaycan Prezidenti beynəlxalq hüquq normaları çərçivəsində siyasi etika qaydalarına riayət edərək açıq şəkildə fikirlərini ifadə etmiş, Ermənistanın işğalçı dövlət olduğunu təkzibolunmaz faktlar və dəlillərlə, dəmir məntiqlə sübut etmiş, Nikol Paşinyanın əsassız fikirlərini ifşa etmişdir. Belə ki, dövlət başçımız XIX əsrin əvvəllərində İrəvan əhalisinin 70 faizinin azərbaycanlılardan ibarət olduğunu faktlar əsasında isbatlayaraq deyib: "erməni xalqı öz müqəddəratını artıq təyin edib. Onların erməni dövləti var. Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə oz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!".

Prezident İlham Əliyevin BMT Baş Assambleyasında ümumi debatlarda videoformatda çıxışı da beynəlxalq ictimaiyyətə həqiqətlərin çatdırılmasında mühüm rol oynadı: "Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günə öz həllini tapır. Ermənistan isə 30 ildir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur".

Prezident İlham Əliyev Aşqabad şəhərində keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Ermənistanda hökm sürən nasizm və faşizmin təbliğinə diqqət çəkərək deyib: "Bu, ümumbəşəri dəyərlərlə bir araya sığmır. Qaregin Njdeni təbliğ etmək həm də SSRİ xalqlarına, o cümlədən Rusiya xalqına qarşı xəyanətdir. Faşizmə qulluq etmiş şəxsin bu gün Ermənistanda təbliğ olunması, heykəl qoyulması bəşəriyyətə, ilk növbədə də Rusiyaya xəyanətdir. Çox təəssüflər olsun ki, Qaregin Njdenin heykəli hələ də Ermənistanda qalmaqda, orta və ali məktəblərində təbliğ olunmaqdadır... Bu, təcavüzə məruz qalan bir ölkə kimi bizi düşündürməyə bilməz". Ermənistanın faşist cinayətkara heykəl qoyulmaqla faşizmi təbliğ etdiyini bəyan edən İlham Əliyevin qətiyyətli çıxışı ilk növbədə, Ermənistanın faşist ideyalarının daşıyıcısı, eyni zamanda işğalçı ölkə olmasının sübutu idi.

Azərbaycan Prezidenti cənab İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə daim Ermənistanın təxribatçılıq fəaliyyətini, işğalçılıq və müharibə planlarını ifşa etmiş və diqqəti daha çox beynəlxalq qurumların Ermənistanın işğalçı siyasətinə biganə yanaşmasına yönəltmişdir.

Ölkə başçımız 44 günlük Vətən müharibəsində dünyanın aparıcı media qurumlarının nümayəndələrinə verdiyi 30-a yaxın müsahibələri əsl həqiqətin-Ermənistanın on illərlə davam edən məkrli, qəzəbli, Azərbaycan fobiyalı yalan təbliğatının, siyasətinin darmadağın edilməsi ilə tarixə düşüb.

Azərbaycan Prezidentinin müharibədən əvvəlki bütün çıxışlarında beynəlxalq birliyi Ermənistanın işğalçı siyasətinə son qoymaq üçün qətiyyətli tədbirlər görməyə, baş verənlərə seyrçi qalmamağa çağırmış, Azərbaycanın qətiyyətli mövqeyini beynəlxalq təşkilatların diqqətinə çatdırmış və bütün bunların fonunda da hər zaman milli maraqlarımızın qorunması, ərazi bütövlüyümüzün bərpa olunması məsələsində prinsipiallıq nümayiş etdirmişdi. Bunu Prezident İlham Əliyevin illərdir Ermənistanın işğalçılıq siyasətini ifşa edən xarici siyasətinin bəhrəsi də adlandırmaq olar.

Bu gün Azərbaycan xalqı öz Lideri ətrafında sıx birləşib. Son bir il ərzində ölkədə baş verən proseslər, görülən işlər bir əsrdə görüləcək işlərə bərabər oldu. Bu bir il ərzində xalqımız illərlə gözlədiyi qələbəyə nail oldu. Xalqımızın milli ruhu, milli mənliyi özünə qayıtdı.

Məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq mövqeləri gündən-günə möhkəmlənir, dünya birliyinə inteqrasiya olunur və etibarlı tərəfdaşa çevrilir, dost ölkə olaraq qəbul edilir. Ölkədə bütün sahələrdə inkişaf, canlanma, tərəqqi müşahidə olunur. İctimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Prezident İlham Əliyevin inkişaf strategiyası dayanır.

Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirən ölkə başçısı atdığı hər bir addımda, apardığı bütün islahatlarda Azərbaycanın milli maraqlarını müdafiə edir.

Güclü dövlət, güclü iqtisadiyyat, xalqımızın milli ideya ətrafında birləşməsi, azərbaycançılıq fəlsəfəsi, azərbaycançılıq ideologiyası, ölkəni milli-mənəvi dəyərlər əsasında inkişaf etdirmək İlham Əliyevin apardığı məqsədyönlü siyasətin prioritet istiqamətidir.

Türkdilli dövlətlər arasında coğrafi bağlılığın bərpa edilməsinə, bütün Türk dünyasının birlik arzusunun reallığa çevrilməsinə misilsiz töhfələr verən, hər zaman sülh və sabitlik, əmin-amanlıq tərəfdarı olan Azərbaycan Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının qərarı ilə Türk Dünyasının Ali Ordeni ilə təltif olunması isə Azərbaycanı inkişaf etmiş, müasir, güclü və dünya miqyasında nüfuzlu bir dövlətə çevirən, prinsipial, ardıcıl və qətiyyətli siyasət yürüdən dövlət başçımızın nəinki ölkəmizdə, dünya miqyasında, bütün Türk dünyasında yüksək qiymətləndirilən Lider olduğunu bir daha sübut edir.

**Mehparə ƏLİYEVA.**
**"Respublika".**